YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
28 yanvar 2026-cı il, çərşənbə
№ 016 (7083)
Qiymət 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident Sumqayıt Sənaye Parkında: iki açılış, bir təməlqoyma




Bax səh. 2

# Yeni qlobal nizamda Bakı-Vaşinqton xətti

Bax səh. 3

## "Yaşıl Enerji Dəhlizi"nin yeni prioritetləri

Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizinin iştirakçı ölkələri cari ilin mart ayında Bakıda keçirilməsi planlaşdırılan nazirlər görüşündən əvvəl həll edilməli olan əsas prioritetləri müəyyənləşdirib. Qərar "Yaşıl Enerji Dəhlizi" birgə müəssisəsinin işçi qrupunun iclasında energetika nazirlərinin müavinləri tərəfindən qəbul edilib. Qara dəniz kabeli və Mərkəzi Asiya-Azərbaycan "yaşıl enerji" kabeli layihələri arasında potensial sinerji məsələləri müzakirə edilib. Görüşün sonunda gələcək fəaliyyətin əsas istiqamətləri və prioritet vəzifələr müəyyən edilib.

Xatırladaq ki, Qara dəniz enerji dəhlizi üzrə nazirlər görüşü Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü görüşü zamanı keçiriləcək.

Qeyd edək ki, "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində...

Bax səh. 5




Bax səh. 4

## Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Vyetnamda səfərdədir

## Azərbaycan - İsrail: Yüksələn xətlə inkişaf edən əməkdaşlıq

Azərbaycanın milli maraqlara və beynəlxalq prinsiplərə əsaslanan multiregional xarici siyasət kursu dünyada ölkəmizə böyük nüfuz qazandırıb. Qısa müstəqillik tarixində ayrı-ayrı coğrafiyalarda ölkəmizə dost dövlətlərin sayının artması bunun əyani təsdiqidir. Belə dövlətlərdən biri də İsraildir.

Bu günlərdə İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarın rəhbərlik etdiyi nümayəndə heyətinin respublikamıza səfərə gəlməsi və səfər çərçivəsində baş tutan görüşlərdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri ilə bağlı önəmli müzakirələrin aparılması Azərbaycanla İsrail arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etməsinin daha bir təsdiqinə çevrildi. Səfər çərçivəsində Prezident İlham Əliyev İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib. Eləcə də, dost ölkənin yüksək səviyyəli rəsmisi Azərbaycanın xarici işlər naziri...

Bax səh. 3

## Fransada büdcə müəmması davam edir




Bax səh. 7



## Sudan dövləti Ankaraya üz tutur

Bax səh. 7

# Prezident Sumqayıt Sənaye Parkında: iki açılış, bir təməlqoyma
















Prezident İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına əvvəlcə ölkəmizdə yaradılan sənaye zonaları və Sumqayıt Sənaye Parkının fəaliyyəti barədə məlumat verib.

"Azermirror" MMC-nin təsisçisi Rüstəm Abbasov Prezident İlham Əliyevə müəssisə barədə məlumat verib. Bildirilib ki, bu MMC-yə 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib. "Azermirror" tərəfindən sənaye parkının 1 hektar ərazisində güzgü vərəqələrinin istehsalı zavodu tikilib. Burada 30 nəfər daimi işlə təmin olunub. Zavodda ildə 900 min kvadratmetr güzgü vərəqəsi istehsal ediləcək. Müəssisədə hazırlanan məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, ixracı da nəzərdə tutulur. Çin texnologiyası əsasında qurulan layihənin investisiya dəyəri 6,13 milyon manatdır. Müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,5 milyon manat güzəştli kredit ayrılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan "Azermirror" MMC 600 min manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb.

***

Prezident İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib. "Bakı Karton və Qutu Fabriki" MMC-nin rəhbəri Kamran Salmanlı dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən "Bakı Karton və Qutu Fabriki" MMC tərəfindən Parkın 3 hektara yaxın ərazisində karton və qutu taralarının istehsalı müəssisəsi qurulub. Türkiyə və Çin texnologiyalarından istifadə edilən müəssisədə il ərzində 55 milyon kvadratmetr karton və qutu tarası istehsal olunacaq. Burada birinci mərhələdə karton və qutu istehsalının, ikinci mərhələdə isə karton istehsalı üçün tələb olunan yerli xammalın təkrar emalının həyata keçirilməsi planlaşdırılır. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. Müəssisənin investisiya dəyəri 20 milyon manatdır. Onun yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2 milyon manat dəyərində güzəştli kredit ayrılıb. Burada 64 daimi iş yeri yaradılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan müəssisə təqribən 1,3 milyon manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb.

Qeyd edək ki, sənaye zonalarında sahibkarlığın inkişafını təşviq etmək məqsədilə rezidentlər üçün geniş güzəşt və stimullaşdırıcı mexanizmlər tətbiq olunur. Belə ki, rezidentlər dövlət vəsaiti hesabına yaradılmış hazır infrastrukturla - qaz, elektrik enerjisi, su, çirkab sularının axıdılması sistemləri, daxili avtomobil və dəmir yolları, həmçinin fiber-optik internet xətləri ilə təmin edilir. Eyni zamanda, rezidentlər 10 il müddətinə əmlak, torpaq və mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumlarından azad olunur.

***

Prezident İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub. "Nun" MMC-nin təsisçisi Kamran Rzayev yaradılacaq müəssisə barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, ötən il Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən bu MMC tərəfindən reallaşdırılacaq layihəyə uyğun olaraq 1 hektar ərazidə istehsal müəssisəsinin tikintisi nəzərdə tutulub. Almaniya texnologiyasından istifadə ediləcək müəssisənin illik istehsal gücü 1680 ton laminatlı kisə, 1440 ton polipropilen kisə olmaqla ümumilikdə 3120 tondan çox təşkil edəcək. Məhsullar əsasən daxili bazarın tələbatını ödəyəcək. Burada 140 daimi iş yeri yaradılacaq. İnvestisiya həcmi 11,2 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3 milyon manat dəyərində güzəştli kredit ayrılması nəzərdə tutulub. Burada quraşdırılacaq avadanlığın idxal zamanı ƏDV və gömrük rüsumlarından azad olunması planlaşdırılır.

***

Onu da qeyd edək ki, Azərbaycanda qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkəmizdə mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə, innovativ yanaşmaların və qabaqcıl texnologiyaların sənaye istehsalına cəlb olunması, yeni sənaye sahələrinin formalaşdırılması, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilir.

Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 104 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə 1,74 milyard manata yaxın investisiyanın yatırılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 6,1 milyard manatlıq hissəsi ixrac olunub. Hazırda istehsal olunan məhsullar dünyanın 70 ölkəsinə ixrac edilir.

Respublikanın müxtəlif regionlarında sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, orada sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli mühitin formalaşdırılması iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədilə ölkədə reallaşdırılan uğurlu sənayeləşmə siyasətinin nəticəsidir. Sənaye zonaları biznes subyektlərinin innovativliyinin və istehsal səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan məhsul istehsalının təşviqində, ixrac potensialının genişləndirilməsində, eyni zamanda, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Hazırda ölkədə Sumqayıt, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" daxil olmaqla 8 sənaye parkı fəaliyyət göstərir. Naxçıvan Sənaye Parkının, eləcə də Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yeni Qərb Sənaye Parkının yaradılması istiqamətində işlər görülür. Bütün bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri də istehsal və sahibkarlıq fəaliyyətinin inkişafına töhfə verir.

Qeyd edək ki, ümumi sahəsi 640 hektar olan Sumqayıt Sənaye Parkında hazırda 40 rezident fəaliyyət göstərir, layihələrin ümumi dəyəri 6,7 milyard manat, faktiki investisiya həcmi isə 5,5 milyard manat təşkil edir. Layihələr çərçivəsində 8800-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Faktiki olaraq 6135 nəfər işlə təmin edilib. Rezidentlərin ümumi satış həcmi 15,4 milyard manata çatıb ki, bunun da 5,7 milyard manatı ixracın payına düşür.















# Yeni qlobal nizamda Bakı-Vaşinqton xətti

## ABŞ vitse-prezidentinin planlaşdırılan Bakı səfəri: Azərbaycanın Avrasiya siyasətində artan rolu önə çıxır

XXI əsrin ilk onilliklərindən etibarən formalaşmağa başlayan yeni dünya nizamı beynəlxalq münasibətlərin klassik arxitekturasında ciddi korrektələr aparır. Qlobal güc balansının yenilənməsi, təhlükəsizlik çağırışlarının çoxşaxəli xarakter alması, enerji və nəqliyyat marşrutlarının yenidən dizayn olunması dövlətlərarası münasibətlərdə yeni reallıqlar yaradıb. Artıq yalnız supergüclər deyil, "orta güc" kateqoriyasına daxil olan, lakin çevik diplomatiya, strateji baxış və dayanıqlı iqtisadi potensiala malik ölkələr də qlobal proseslərdə aparıcı aktora çevrilir.

Son 5 ildə bu transformasiya daha sürətli və daha aydın müşahidə olunur. Geosiyasi risklərin artdığı, regional münaqişələrin qlobal təsir dairəsi qazandığı bir şəraitdə etibarlı tərəfdaşlıq, balanslı siyasət və praqmatik yanaşma əsas üstünlüklər kimi ön plana çıxır. Məhz bu kontekstdə Azərbaycan yeni qlobal nizamın diqqət mərkəzinə gələn əsas dövlətlərdən biri kimi çıxış edir. Avrasiya məkanının mərkəzində yerləşən Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub oxları üzrə mühüm nəqliyyat-logistika qovşağı olmaqla yanaşı, enerji təhlükəsizliyi və regional sabitlik baxımından da aparıcı rola malikdir. Əgər 2005-2020-ci illər ərzində Azərbaycan əsasən Cənubi Qafqaz regionunun lider dövləti kimi qəbul edilirdisə, Vətən müharibəsində əldə olunan tarixi Qələbə və ardınca həyata keçirilən antiterror tədbirləri nəticəsində yaranmış yeni təhlükəsizlik arxitekturası ölkənin təsir miqyasını həm siyasi, həm də iqtisadi kateqoriya ilə xeyli genişləndirdi. Bu gün Bakı Cənubi Qafqazla yanaşı, Mərkəzi Asiyanı, Xəzər hövzəsini və daha geniş Avrasiya coğrafiyasını birləşdirən strateji həlqə dövlətlərindən biri kimi dəyərləndirilir.





**Qütblər arasında uzlaşma və strateji qovşaq**

Rəsmi Bakının həyata keçirdiyi siyasi və iqtisadi strategiyanın əsas fərqləndirici cəhəti uzaqgörənlik, operativlik və çevik qərarvermə mexanizmlərinin mövcudluğudur. Azərbaycan dəyişkən beynəlxalq mühitdə hadisələri yalnız müşahidə edən tərəf deyil, eyni zamanda prosesləri istiqamətləndirən, təşəbbüslərlə çıxış edən aktor kimi mövqe tutur. Bu yanaşma müasir çağırışlara cavab verən, milli maraqlarla qlobal tendensiyaların uzlaşdırılmasına əsaslanan dövlət siyasətinin məntiqi nəticəsidir.

Azərbaycanın balanslı xarici siyasət kursu müxtəlif qütblər arasında körpü rolunu oynamaq imkanını formalaşdırıb. Qərb ilə Şərq, Şimal ilə Cənub arasında etibarlı dialoq platforması kimi çıxış edən Bakı fərqli maraqların toqquşduğu məkanda uzlaşma mühiti yaradır. Bu, xüsusilə enerji, nəqliyyat, təhlükəsizlik və humanitar əməkdaşlıq sahələrində özünü qabarıq şəkildə göstərir. Orta Dəhliz layihəsi bu baxımdan yalnız iqtisadi deyil, həm də geosiyasi məzmun daşıyır və Azərbaycanın yeni qlobal nizamda oynadığı rolun əsas sütunlarından birinə çevrilib.

Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə formalaşan regional əməkdaşlıq formatları və çoxtərəfli platformalar qlobal sistemdə humanizm, qarşılıqlı hörmət və suverenliyə əsaslanan yeni münasibətlər modelini təşviq edir. Rəsmi Bakı mövcud imkanları yalnız milli maraqlar kontekstində deyil, həm də regional rifah və sabitlik prizmasından dəyərləndirir. Bu yanaşma Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, onu qlobal əlaqələr sistemində etibarlı və məsuliyyətli tərəfdaş kimi tanıdır.

**ABŞ-Azərbaycan əlaqələrində yeni nəfəs**

Mövcud geosiyasi reallıqlar fonunda ABŞ ilə Azərbaycan arasındakı münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Son bir il ərzində Vaşinqtonun Cənubi Qafqaz siyasətində müşahidə olunan dəyişikliklər Azərbaycanın regional və qlobal roluna verilən önəmin artdığını göstərir. Tərəfdaşlıq formatının yenilənməsi, əməkdaşlıq sahələrinin genişləndirilməsi və siyasi dialoqun intensivləşdirilməsi bu münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlandığını deməyə əsas verir.

ABŞ üçün Azərbaycan təkcə regional sabitliyin təminatçısı deyil, həm də Avrasiya məkanında etibarlı strateji tərəfdaşdır. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, terrorizmə qarşı mübarizə və regional təhlükəsizlik məsələlərində Bakı ilə Vaşinqtonun maraqları üst-üstə düşür. Məhz bu kontekstdə ABŞ vitse-prezidenti Ceyms Devid Vensin fevral ayında Bakıya səfəri rəmzi yox, dərin siyasi məna daşıyan hadisə kimi qiymətləndirilir. Bir müddət öncə, Davosda Prezident Trampla Prezident İlham Əliyev arasında baş tutan görüş ABŞ-Azərbaycan münasibətlərinin yalnız mövcud gündəliklə məhdudlaşmadığını, uzunmüddətli strateji baxışa əsaslandığını ortaya qoydu. Azərbaycan bu gün ABŞ-ın regiondakı ən yaxın və etibarlı tərəfdaşlarından biri kimi çıxış edir və bu status real siyasi addımlar, konkret əməkdaşlıq mexanizmləri ilə möhkəmləndirilir.

**Regional gələcəyə dair maraqlar üst-üstə düşür**

ABŞ-ın regionun gələcək inkişafında maraqlı olduğunu göstərən əsas amillərdən biri Zəngəzur dəhlizinə (TRİPP) verilən açıq dəstəkdir. Bu dəhliz təkcə regional kommunikasiya layihəsi deyil, həm də Avrasiya məkanında iqtisadi inteqrasiyanı gücləndirən, geosiyasi gərginlikləri azaldan strateji təşəbbüsdür. Vaşinqtonun bu layihəyə maraq göstərməsi Azərbaycanın yaratdığı yeni reallıqların beynəlxalq miqyasda qəbul olunduğunu təsdiqləyir. Bu fakt bir daha onu təsdiqləyir ki, bölgədə yaranan yeni sabitlik modeli Azərbaycanın hərbi-siyasi qələbəsinin nəticəsi olmaqla yanaşı, həm də davamlı iqtisadi əməkdaşlıq fəlsəfəsinə əsaslanan genişmiqyaslı regional inkişaf konsepsiyasına söykənir. Azərbaycanın təşəbbüskarı olduğu nəqliyyat və enerji layihələri regionu qlobal siyasi xəritədə vacib tranzit mərkəzinə çevirir. Zəngəzur dəhlizi (TRİPP) perspektivi Şərqlə Qərbi birləşdirəcək ən təhlükəsiz, ən qısa və ən funksional xətt kimi dəyərləndirilir. Bu dəhliz təkcə fiziki nəqliyyat koridoru deyil; bu, qlobal güclərin maraqlarını kəsişdirən, sabitliyə və davamlı əməkdaşlığa əsaslanan yeni geostrateji sistemin əsas sütunlarından biridir. Rəsmi Bakı bu sistemi formalaşdırmaqla regionda müharibə risklərini minimuma endirdi və Cənubi Qafqazı qlobal iqtisadiyyatın ayrılmaz bir hissəsinə çevirdi.

Bakı ilə Vaşinqton arasında ötən il avqustun 8-də Azərbaycan və ABŞ liderləri tərəfindən Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması, birgə işçi qruplarının formalaşdırılması və institusional əməkdaşlığın dərinləşdirilməsi ABŞ-Azərbaycan münasibətlərinin taktiki deyil, strateji xarakter daşıdığını göstərir. Bu yanaşma regionda uzunmüddətli sabitliyin təmin olunmasına və yeni iqtisadi imkanların açılmasına xidmət edir. ABŞ üçün Azərbaycan təhlükəsiz və proqnozlaşdırıla bilən tərəfdaşdır, Azərbaycan üçün isə ABŞ qlobal sistemdə mühüm siyasi və iqtisadi dayaqlardan biridir.

**Yeni reallığın növbəti təsdiqi**

Vurğulandığı kimi, artıq Bakı yeni qlobal nizamda fəal və məsuliyyətli aktor kimi seçilir. Azərbaycanın xarici siyasət fəlsəfəsinin mərkəzində əməkdaşlıq, sülh və təhlükəsizlik tezisləri dayanır. Rəsmi Bakı qlobal və regional proseslərdə qarşıdurma deyil, dialoq və uzlaşma xəttini təşviq edir. Məhz bu yanaşma Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirir və onu yeni dünya nizamının əsas dayaqlarından birinə çevirir.



ABŞ vitse-prezidentinin Bakıya səfəri bu reallığın növbəti təsdiqi olmaqla yanaşı, Azərbaycan-ABŞ münasibətlərinin gələcək perspektivlərinin də konturlarını cızır. Yeni qlobal nizamda Azərbaycan artıq təkcə iştirakçı deyil, proseslərə istiqamət verən, regional və qlobal sabitliyə töhfə verən mühüm mərkəz kimi çıxış edir. Bu, həm milli maraqların təminatı, həm də beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

*P.SADAYOĞLU*

# Azərbaycan - İsrail: Yüksələn xətlə inkişaf edən əməkdaşlıq

*Mübariz FEYİZLİ*

Azərbaycanın milli maraqlara və beynəlxalq prinsiplərə əsaslanan multiregional xarici siyasət kursu dünyada ölkəmizə böyük nüfuz qazandırıb. Qısa müstəqillik tarixində ayrı-ayrı coğrafiyalarda ölkəmizə dost dövlətlərin sayının artması bunun əyani təsdiqidiir. Belə dövlətlərdən biri də İsraildir.

Bu günlərdə İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarın rəhbərlik etdiyi nümayəndə heyətinin respublikamıza səfərə gəlməsi və səfər çərçivəsində baş tutan görüşlərdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri ilə bağlı önəmli müzakirələrin aparılması Azərbaycanla İsrail arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etməsinin daha bir təsdiqinə çevrildi. Səfər çərçivəsində Prezident İlham Əliyev İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib. Eləcə də, dost ölkənin yüksək səviyyəli rəsmisi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşüb və bir sıra digər mühüm tədbirlərə qatılıb. Səfər gündəliyinin belə geniş olması ondan xəbər verir ki, hər iki tərəf əməkdaşlığı genişləndirməkdə maraqlıdır.

**Dinamik səciyyə daşıyan siyasi dialoq**

Bu gün Azərbaycanla İsrail arasında müxtəlif istiqamətlərdə məmnunluq doğuran yüksəksəviyyəli münasibətlərin təməlində dayanan əsas amil siyasi dialoqun dinamik səciyyə daşımasıdır. Hər iki dövlətin davamlı və qətiyyətli siyasi iradəsi sayəsində formalaşan əməkdaşlıq davamlı olaraq inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Müstəqil Azərbaycanmla İsrail Dövləti arasında münasibətlər ötən əsrin doxsanıncı illərinin əvvəllərindən formalaşmağa başlayıb. İsrail 1991-ci il dekabrın 25-də Azərbaycanın müstəqilliyini tanıyıb, 1992-ci il aprelin 7-də iki ölkə arasında diplomatik əlaqələr qurulub. 1993-cü ilin avqustundan İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. 2023-cü il aprelin 23-də Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin açılması iki ölkə arasında yüksək səviyyədə olan münasibətlərin daha da inkişaf etməsinə mühüm töhfə olub. Milli Məclisdə Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Eyni zamanda, dost ölkənin Knessetində İsrail-Azərbaycan parlamentlərarası dostluq qrupu yardılıb. İndiyədək Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında 13 sənəd imzalanıb.

İki dost ölkə arasında qarşılıqlı etimadın göstəricisi olaraq yüksəksəviyyəli nümayəndə heyətlərinin səfərləri davamlı hal alıb. Azərbaycan və İsrail prezidentləri müxtəlif beynəlxalq platformalarda müntəzəm qaydada görüşərək aktual müzakirələr aparırlar. Dövlət başçıları arasında sonuncu belə görüş bu günlərdə Davos İqtisadi Forumu çərçivəsində baş tutub. Həmin görüşdə Azərbaycan-İsrail münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı vurğulanıb. İqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib, həmçinin dövlət başçıları əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

Bəhs olunan qəbulda isə ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulanıb, kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, həmçinin süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edilib, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunulub.



Eyni zamanda, hökumətlərarası komissiyanın rolu qeyd edilərək, bu yaxınlarda komissiyanın növbəti iclasının keçirildiyi vurğulanıb.

**İki dost ölkə sülh və sabitliyin tərəfdarıdır**

Azərbaycan və İsrail davamlı olaraq ərazi bütövlüyü və suverenlik prinsiplərindən çıxış edirlər. Dost ölkə 44 günlük Vətən müharibəsi günlərində Azərbaycanın haqq mübarizəsinə dəstək verib. Eyni zamanda, İsrail Azərbaycanın işğaldan azad olunmuş ərazilərində reallaşdırılan layihələrin həyata keçirilməsində fəal iştirak edir. Öz növbəsində Azərbaycan İsrail-Fələstin münaqişəsinin sülh yolu ilə həllinə tərəfdardır. Ölkəmizin mövqeyini xarici işlər naziri Ceyhun Bayramov israilli həmkarı Gideon Saar ilə birlikdə Bakıda keçirilən mətbuat üçün brifinqdə bir daha diqqətə çatdırıb. Nazir bildirib ki, Azərbaycanın Qəzza zolağındakı atəşkəsin davamlı olması arzusunu İsrail tərəfinin diqqətinə çatdırıb. Azərbaycan həmçinin ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan "Sülh Şurası"na qoşulub. Prezident İlham Əliyev bu günlərdə Davosda müvafiq sənədi imzalayıb.





Görüşlərdə vurğulandığı kimi, İsrail Dövləti Azərbaycanın regionda sülh mövqeyindən çıxış etməsini yüksək dəyərləndirir. Postmüharibə dövründə qalib Azərbaycanın təşəbbüsü ilə başlayan sülh prosesi məntiqi sonluğa çatmaq üzrədir. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ, Ermənistan liderlərinin iştirakı ilə yekun sülh sazişinin mətninin paraflanması və digər razılaşmaların əldə olunması sülh yolunda atılan çox mühüm addımlardır. Vaşinqton görüşünün nəticəsi olaraq artıq regionda sülh bərqərar olub və hazırda etimad quruculuğu istiqamətində fəal iş aparılır. İsrailin xarici işlər naziri Gideon Saar Bakıda azərbaycanlı həmkarı Ceyhun Bayramovla birgə mətbuat konfransında bildirib ki, Vaşinqtonda əldə edilmiş nəticələr Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində mümkün olub. Onun sözlərinə görə, Prezident İlham Əliyevin müdrik siyasəti olmasaydı, regionda sülh olmazdı. Onun sözlərinə görə, inkişaf etmiş iqtisadiyyata malik olan İsrail və Azərbaycan regionlarımızda sabitliyin dayağıdır.

**Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğı**

İsrailin xarici işlər naziri Gideon Saar qəbulda Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Nazirin məmnunluğu ölkəmizin reallıqlarından qaynaqlanır. Bu gün dünyada multikulturalizmlə bağlı ciddi problemlər yaşanmasına baxmayaraq, Azərbaycan tarixdən gələn tolerantlıq ənənələrini qoruyub saxlayır. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Lakin belə fərqlilik ölkəmizdə əsla ayırıcı xətlər yaratmır, əksinə, biz bununla qürur duyuruq.

O cümlədən respubllikamızda yəhudilər də əmin-arxayın yaşayaraq öz həyatlarını qururlar və mədəniyyətlərini inkişaf etdirlər. Bu gün yəhudilər Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsini təşkil edirlər. Təsadüfi deyildir ki, Qarabağ müharibəsində şəhid olan ilk qəhrəmanlar sırasında yəhudi əsilli Milli Qəhrəmanımız Albert Aqarunovun adı xüsusi hörmətlə çəkilir.

Yəhudilərin Bakıda ilk ibadət evləri 1832-ci ildə inşa olunub. Hazırda Bakı şəhərində yəhudilərin 3 sinaqoqu mövcuddur. Bir sinaqoq isə Azərbaycanın Quba rayonunda, dağ yəhudilərinin iri icmasının məskunlaşdığı Qırmızı Qəsəbədədir. Bu, keçmiş SSRİ-də yəhudilərin kompakt yaşamaqda olduğu yeganə yerdir. Cənubi Qafqazda ən böyük yəhudi təhsil mərkəzi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı-Azərbaycan" layihəsi çərçivəsində "Or-Avner" Beynəlxalq Fondu tərəfindən inşa edilən və Bakıda yaşayan yəhudi uşaqları üçün nəzərdə tutulan "Xabad-Or-Avner"dir. 2010-cu il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, MDB Yəhudi İcmaları Federasiyasının və "Or-Avner" Beynəlxalq Fondunun prezidenti Lev Levayevin iştirakı ilə Təhsil Mərkəzinin açılışı baş tutub. Bundan başqa, Azərbaycanda yəhudilərin iyirmiyə yaxın ictimai-mədəni və xeyriyyə təşkilatı fəaliyyət göstərir.

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Vyetnamda səfərdədir












Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hongun dəvəti ilə Vyetnam Sosialist Respublikasına səfər edib.






Səfər çərçivəsində nümayəndə heyətinin Vyetnam xalqının öndəri Ho Şi Minin məqbərəsinə, muzeyinə və vaxtilə yaşadığı evinə ziyarəti təşkil olunub. Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinə dair şəkillər nümayiş olunmaq üçün nümayəndə heyəti adından muzeyə hədiyyə olunub.

Tahir Budaqov ilə Vyetnam Kommunist Partiyasının Baş katibi To Lam arasında görüş keçirilib. Görüşdə Azərbaycan-Vyetnam münasibətlərinin dərin tarixi köklərə malik olduğu vurğulanaraq xalqlarımız arasındakı dostluq əlaqələrinin hələ SSRİ dönəmində formalaşdığı, Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyət daşıdığı bildirilib.

To Lam ötən ilin may ayında ölkəmizə səfərini xatırladıb və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi də Vyetnamda səbirsizliklə gözlədiklərini deyib. O, strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunması ilə Azərbaycan-Vyetnam münasibətlərinin yeni inkişaf mərhələsinə yüksəldiyini qeyd edib.

Tahir Budaqov Azərbaycan ilə Vyetnam arasında münasibətlərin inkişafında liderlər arasında şəxsi dostluğun böyük rol oynadığını bildirərək müxtəlif sahələrdə, o cümlədən statistika qurumları arasında əməkdaşlığın genişləndirilməsinin diqqət mərkəzində olduğunu deyib.

Görüşdə hakim siyasi partiyalar arasında əlaqələrin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı xüsusunda əhəmiyyəti vurğulanaraq 2023-cü ildə imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin müvəffəqiyyətlə həyata keçirildiyi qeyd olunub.

Nümayəndə heyətinin Vyetnamın Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hong ilə görüşü zamanı isə Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. İki ölkənin iqtisadi-ticari, mədəni, humanitar, təhsil, turizm, enerji və digər sahələrdə işbirliyinin genişləndirilməsində maraqlı olduqları vurğulanaraq "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələn vəzifələrin həyata keçirilməsinin beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatlar mübadiləsinin genişləndirilməsi və dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi qeyd olunub.

Görüş zamanı Anlaşma Memorandumu çərçivəsində statistika sahəsində 2026-2028-ci illər üçün İş Planı da imzalanıb. İş Planı əsasında görüləcək işlərin statistika sahəsində institusional əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyi vurğulanıb.

Vyetnam xarici işlər nazirinin müavini Nguyen Minh Vu ilə görüşdə isə iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Mərakeş əlaqələri inkişaf edir

*Nardar BAYRAMLI*

Bakıda Azərbaycanın Xarici İşlər Nazirliyi və Mərakeş Krallığının Xarici İşlər, Afrika Əməkdaşlığı və Xaricdə Yaşayan Mərakeşlilər Nazirliyi arasında siyasi məsləhətləşmələrin dördüncü raundu keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Mərakeş Krallığı tərəfindən isə Xarici İşlər, Afrika Əməkdaşlığı və Xaricdə Yaşayan Mərakeşlilər Nazirliyinin Asiya və Okeaniya məsələləri üzrə baş direktoru Ömər Kadiri rəhbərlik edib.

Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi, iqtisadi-ticarət, enerji, nəqliyyat, turizm, təhsil, idman və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti və gələcək əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib. Çoxtərəfli platformalarda iki ölkə arasında əməkdaşlığın vəziyyəti ilə bağlı məmnunluq ifadə edilib və bu təcrübənin davam etdirilməsinin zəruriliyi qeyd olunub. Qarşı tərəfə regionumuzdakı son inkişaf, sülh gündəliyi, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və quruculuq işləri barədə məlumat verilib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, Mərakeş Krallığı Azərbaycanın müstəqilliyini 1991-ci ilin 30 dekabr tarixində tanıyıb. 1992-ci ilin 28 avqustunda isə iki ölkə arasında diplomatik əlaqələr yaradılıb. Azərbaycanla Mərakeş arasında ölkələr beynəlxalq təşkilatlar, o cümlədən BMT və İƏT çərçivəsində inkişaf etdirilib. 1994-cü ilin dekabrında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi məqsədilə Kasablanka şəhərində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Mərakeş Krallığı Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Protokol imzalanıb.

Eləcə də, Bakı şəhərində Mərakeş səfirliyinin və Rabat şəhərində isə Azərbaycan səfirliyinin fəaliyyət göstərməsi ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafına öz vacib töhfəsini verir. İki ölkə arasında əlaqələr yalnız siyasi sferada deyil, həmçinin hərbi, iqtisadi-ticari və mədəni sahələrdə dinamik inkişaf edir. Tərəflərin imzaladığı hərbi tərəfdaşlıq sazişi Bakı və Rabat arasında uzun illər davam edən siyasi yaxınlaşmanı daha da gücləndirmiş oldu. Belə ki, 2025-ci il yanvarın 10-da Prezident İlham Əliyev Azərbaycan və Mərakeş arasında hərbi əməkdaşlıq haqqında razılaşmanı təsdiqləyib. Bu saziş iki hökumət arasında 2024-cü il oktyabrın 30-da imzalanıb və müdafiə sahəsində əlaqələrin gücləndirilməsi üçün təməl yaradıb. Saziş texniki yardım, birgə təlimlər, təcrübə mübadiləsi, kibertəhlükəsizlik və müdafiə sənayesi daxil olmaqla bir sıra əməkdaşlıq sahələrini əhatə edir.

Son illər ikitərəfli əlaqələrdə sürətlə artan dinamika xüsusilə, iqtisadi-ticari sahədə müşahidə edilməkdədir. Bu sahədə əldə olunan müsbət nəticələrdə Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyasının qəbul etdiyi qərarlar da vacib rol oynayır. Komissiyanın qərarlarında enerji və logistika sahələrində əməkdaşlığın genişləndirilməsi barədə razılaşmalar, iqtisadi əməkdaşlığa dair hüquqi bazanın formalaşdırılması və s. öz əksini tapır. Artan ticarət həcmi təkcə iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmlənməsini əks etdirmir, həm də digər sektorlarında, xüsusilə enerji, logistika və sənaye sektorlarında əməkdaşlığın şaxələndirilməsi yolu ilə iqtisadi əlaqələrin genişləndirilməsinə yönəlmiş səyləri nümayiş etdirir. Bu proses həm dövlət orqanları, həm də biznes liderləri arasında davam edən dialoqla dəstəklənir.



Beləliklə, Azərbaycanla Mərakeş qarşılıqlı faydalı əməkdaşlıq imkanları təklif edən bütün sahələrdə güclü siyasi iradə nümayiş etdirir. İki ölkənin münasibətləri təkcə dini və mədəni əlaqələrə məhdudlaşmır, eyni zamanda, qarşılıqlı hörmətə əsaslanan və ikitərəfli əməkdaşlığın yüksək səviyyəsini təsdiqləməklə iqtisadiyyat və müdafiə kimi strateji sahələri də əhatə edir.

# "Yaşıl Enerji Dəhlizi"nin yeni prioritetləri

## Xəzər-Qara dəniz-Avropa dəhlizi yeni mərhələyə daxil olur

Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizinin iştirakçı ölkələri cari ilin mart ayında Bakıda keçirilməsi planlaşdırılan nazirlər görüşündən əvvəl həll edilməli olan əsas prioritetləri müəyyənləşdirib. Qərar "Yaşıl Enerji Dəhlizi" birgə müəssisəsinin işçi qrupunun iclasında energetika nazirlərinin müavinləri tərəfindən qəbul edilib. Qara dəniz kabeli və Mərkəzi Asiya-Azərbaycan "yaşıl enerji" kabeli layihələri arasında potensial sinerji məsələləri müzakirə edilib. Görüşün sonunda gələcək fəaliyyətin əsas istiqamətləri və prioritet vəzifələr müəyyən edilib.




Xatırladaq ki, Qara dəniz enerji dəhlizi üzrə nazirlər görüşü Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü görüşü zamanı keçiriləcək.

Qeyd edək ki, "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığın əsası 2022-ci ildə Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış memorandumla qoyulub. Belə ki, Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Sazişin icrasını təmin etmək məqsədilə 2024-cü ilin may ayında Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan arasında yeni enerji ənəkdaşlığı üzrə birgə müəssisənin yaradılmasına dair memorandum imzalanıb və "yaşıl enerji"nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb. Birgə müəssisənin yaradılmasından sonra "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin icrasını təmin etmək üçün Rumıniyanın "Transelectrica", Azərbaycanın "Azərenerji" ASC, Gürcüstanın "Elektrik Şəbəkəsi" və Macarıstanın "MVM" şirkəti arasında da saziş imzalanıb.

### 3 qardaşın enerji həmrəyliyi

"Yaşıl enerji" həmrəyliyi halqası sonrakı dövrdə daha da genişlənib və türk dövlətləri olan Qazaxıstan və Özbəkistan dəhlizdə yer almaq niyyətlərini bəyan edib. 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı "Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Həmçinin, 2025-ci il aprelin 4-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Asiya İnkişaf Bankı (ADB) və Asiya İnfrastruktur İnvestisiya Bankının (AIIB) dəstəyi ilə "Xəzər yaşıl enerji dəhlizi" təşəbbüsünün birinci mərhələsinin başlanması barədə razılığa gəlib.




Tərəflər üç ölkənin enerji sistemlərinin inteqrasiyasını və Avropaya bərpa olunan enerji tədarükü marşrutunun yaradılmasını nəzərdə tutan layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasına dair əməkdaşlıq sazişi imzalayıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur. Bu, təxminən Xəzər dənizində qiymətləndirilən 500 QVt-dan çox külək enerjisinin nəqli deməkdir.

Hazırda Xəzər dənizi bərpa olunan enerji mənbələri üzrə ən böyük ehtiyatlara malikdir. Təkcə Xəzər dənizinin Azərbaycana aid hissəsində külək enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Eləcə də Qazaxıstan sektorunda da günəş və külək stansiyaları üçün zəngin resurslar var ki, hazırda bu sahədə infrastrukturlar yaradılır. Bu ölkənin külək potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çoxdur, günəş enerjisi isə 1 trilyon kilovat/saatdır. Yaxud Özbəkistanın Asiya çöllərində günəş enerjisi üçün resurslar xeyli böyükdür, külək enerjisinin potensialı 520 QVt, günəş enerjisinin potensialı isə 2 trilyon 58 milyard kVt təşkil edir. Bu isə Mərkəzi Asiya və Xəzər regionları arasında böyük bir yaşıl gücün səfərbər olunması üçün imkanları artırır. Ona görə də Xəzər-Qara dəniz kabeli Avropa İttifaqının enerji maraqlarına xidmət edir və Mərkəzi Asiya və Qafqazın "yaşıl körpü"yə çevrilməsi istiqamətində səylər getdikcə artmaqdadır.

### Qarabağ Bəyannaməsinin bəndlərindən biri...

Azərbaycan-Qazaxıstan-Özbəkistan alyansının "yaşıl enerji" üzrə vahid siyasəti Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsinin əsas bəndlərindən birini təşkil edir. Sazişdə əsas hədəflərdən biri kimi üzv ölkələr arasında bərpaolunan enerji sahəsində birgə əlaqələrin vahid iqtisadi blokda birləşdirilməsi öz əksini tapıb. Bəyannamənin 11-ci bəndində TDT ölkələri bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla enerji sahəsində strateji tərəfdaşlığın daha da artırılması və bu çərçivədə Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsinə dəstək ifadə edilib. Sənəddə, həmçinin türk dövlətləri tərəfindən bərpaolunan geniş enerji potensialının imkanları nəzərə alınaraq "yaşıl enerji"nin üzv dövlətlər və üçüncü ölkələr də daxil olmaqla ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişaf etdirilməsi bəyan olunub.

### Ərəb dövlətləri də türk "yaşıl enerji ittifaqı"na qoşulur

Yeri gəlmişkən, ərəb dövlətləri də "yaşıl enerji"nin türk koalisiyasına qoşulmağı planlaşdırır. Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri artıq xeyli müddətdir ki, Mərkəzi Asiya və Azərbaycanda "yaşıl layihələr"də təmsil olunur. Bu baxımdan Qara dəniz kabeli layihəsinin gələcəkdə Yaxın Şərq regionunu da əhatə edəcəyini və Şərq-Qərb enerji dəhlizinin formalaşacağını söyləmək mümkündür. "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan, Qazaxıstan, Özbəkistan və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması da bunu deməyə əsas verir.

Beləliklə, böyük karbohidrogen tədarükçüləri olan 3 türk dövləti və onların müttəfiqinə çevrilmiş Səudiyyə Ərəbistanı növbəti onilliklər ərzində qlobal neft istehlakının azalmasını fonunda ənənəvi enerjini kompensasiya edə biləcək "yaşıl enerji" potensialını qlobal bazarlara çıxaracaq. Bununla da, neft-qaz ölkələri kimi tanınmış bu dövlətlərin növbəti mərhələdə əsas vizyonu "yaşıl enerji"nin ixracatçıları kimi formalaşacaq.




### Cənub Qaz Dəhlizinin "yaşıl tranziti"

Azərbaycan "Qara dəniz kabeli"ni həm də Cənub Qaz Dəhlizində yer alan bütün ölkələrin ortaq ailəsi kimi görür və siyasəti də bu istiqamətdə irəlilədir. Məsələn, 2025-ci il aprelin 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin 11-ci və Yaşıl Enerji Məşvərət Şurasının 3-cü iclaslarında "yaşıl enerji" sahəsində vacib əməkdaşlığın ən nəhəng platforması kimi dəyərləndirilib. Bu layihə çərçivəsində "yaşıl hidrogen"lə bağlı ölkələrarası dialoqun artırılması qərara alınıb. Eyni zamanda, Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 8 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.

Qara dəniz sualtı kabel layihəsi Gürcüstan və Rumıniyanı birbaşa birləşdirəcək, Cənubi Qafqaz və Cənub-Şərqi Avropanın enerji sistemlərini bir-birinə bağlayacaq ən böyük infrastruktur layihəsidir. Sualtı kabelin uzunluğu 1 155 km-dən çox olacaq (1 115 km suyun altında və 40 km quruda), gərginliyi 525 kV, gücü isə 1300 MVt olacaq. Qara dəniz vasitəsilə sualtı elektrik kabelinin tikintisinin 2032-ci ildə başa çatması planlaşdırılır.

*E.CƏFƏRLİ*




# Asiya Bankı logistika infrastrukturunu modernləşdirəcək

## Azərbaycan da daxil olmaqla layihə tərəfdaşlarına 50 milyon dollar ayrılacaq

Asiya İnkişaf Bankı (AİB) Azərbaycanın tranzit və sərhəd infrastrukturunun inkişafı üzrə əsas iştirakçılarından və liderlərindən biri olduğu "İnteqrasiya, logistika və inkişaf üçün sərhəd məntəqələrinin modernləşdirilməsi" adlı regional layihəni maliyyələşdirməyi nəzərdən keçirir. Layihə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Çin, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edir. Azərbaycanın gömrük prosedurlarının rəqəmsallaşdırılması, sərhəd məntəqələrinin modernləşdirilməsi və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı sahəsindəki təcrübəsi layihədə iştirak edən digər ölkələr üçün model kimi nəzərdən keçirilir. Layihənin ümumi dəyəri 50 milyon dollar nəzərdə tutulub.

**Cənubi Qafqaz - Mərkəzi Asiya platforması**

Qeyd edək ki, Asiya İnkişaf Bankı bir müddət əvvəl regionun nəqliyyat-infrastruktur dayanıqlılığını möhkəmləndirmək məqsədilə Azərbaycanda icra olunacaq iki texniki yardım layihəsini də təsdiqləyib. Ümumi məbləği 2 milyon dollar təşkil edən regional layihələrin AİB-in donorluq etdiyi Xüsusi Texniki Yardım Fondu vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulur. Maliyyə tutumu 1,5 milyon dollar olan birinci regional layihə "Birlikdə ACT: Mərkəzi və Qərbi Asiyada sürətlənirik, inkişaf və əməkdaşlıq edirik" adlanır və Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edir. Bu, Cənubi Qafqaz-Mərkəzi Asiya coğrafiyasında birgə kommunikativ əməkdaşlığı dəstəkləmək məqsədi daşıyır. Layihə dəyəri 500 min dollar olan "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyin təşviqi: 4-cü alt layihə" isə 13 ölkəni əhatə edir. Həmin ölkələrin sırasına ilk layihədəki dövlətlərdən başqa, Sakit okean bölgəsinin üzvləri də daxildir.

Ümumilikdə, bu logistika layihələri yeni əməkdaşlıq platformasını yaratmaq üçün texniki dəstəyi nəzərdə tutur. Əməkdaşlıq prioritetləri isə həddindən artıq geniş olduğundan icra olunacaq layihələrin maliyyə-investisiya dəyəri 100 milyon dollarla vəsait tələb edəcək. Belə ki, Cənubi Qafqaz, Asiya və Sakit okean regionunda 2030-cu ilə qədər 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olmaq üçün böyük hədəf prinsipləri nəzərdə tutulub ki, burada sosial xidmətlər və dayanıqlı məşğulluq, müasir infrastrukturlar, keyfiyyətli səhiyyə, təhsil xidmətlərinin təşkili, iqtisadi inkişaf təşviqləri, iqlim dəyişikliyinə qarşı mübarizə, istehlak və istehsalın təşviqi, "yaşıl inkişaf" hədəfləri, nəqliyyat və logistika sistemlərinin modernləşdirilməsi, institisional tədbirlər və s. mühüm prinsiplər yer alır




**AİB "Maneəsiz Rəqəmsal Dəhliz"i maliyyələşdirir**

Asiya Bankı son dövrlərdə Orta Dəhlizin maliyyə donoru kimi də aktiv fəaliyyət göstərir. Bank həmin nəqliyyat ekosisteminin altmodeli olan vahid multimodal xidmət - Rəqəmsal Ticarət Koridorunun (Digital Trade Corridor) yaradılmasını maliyyələşdirib ki, bu da "Avrasiya Nəqliyyat Marşrutu"nun rəqəmsallaşmasında və "Maneəsiz Rəqəmsal Dəhliz" sisteminin qurulmasında mühüm rol oynamaqdadır. Asiya Bankının kapital portfelinin böyük bir hissəsinin Çinin maliyyə donorluğu əsasında formalaşmasını nəzərə alsaq "Bir kəmər, bir yol"un müəllifi kimi rəsmi Pekinin Orta Dəhlizdəki rəqəmsal infrastrukturların müasirləşməsinə böyük marağını başa düşmək mümkündür. Bu baxımdan AİB-in dəhlzi üzərində yerləşən ölkələrə, o cümlədən Azərbaycana dəmir yollarının rəqəmsallaşmasına dəstəyi də prioritet təşkil edir.

Bundan başqa, AİB Azərbaycanın regional enerji layihələrinin maliyyələşdirilməsində də donor kimi fəal rol oynayıb, Cənub Qaz Dəhlizi layihəsinə dəstək verən ilk beynəlxalq maliyyə qurumu olub. Avropa İttifaqının enerji təminatında xüsusi rol oynayan bu layihələri də maliyyələşdirməyi öz öhdəsinə götürərək "Şahdəniz" yatağının maliyyələşdirilməsinə 524,5 milyon dollar məbləğində tam şəkildə zəmanət verib.




Ümumilikdə, Asiya Bankı təkcə nəqliyyat sektorunda həyata keçirilən layihələrə 1,5 milyard, enerji layihələrinə isə 1,7 milyard dollar həcmində maliyyə dəstəyi göstərib.

**2029-cu ilədək 2,5 milyard dollar**

Dünyanın ən güclü maliyyə institutlarından biri olan, Asiya və Sakit okean regionunda inkişaf proqramlarının maliyyələşdirilməsində əsas donor kimi tanınan Asiya İnkişaf Bankı Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirmək niyyətindədir. Kapital portfelinin böyük bir hissəsi Çinin maliyyəsi ilə formalaşan bu institut ölkəmizdə infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələrin maliyyələşdirilməsində ən etibarlı və dayanıqlı maliyyə təchizatçısı kimi tanınır. Bank növbəti mərhələdə ölkəmizdə digər layihələrdə də dayanıqlı maliyyə dəstəkçisi olacağını bəyan edib. Azərbaycanda səfərdə olan AİB-in prezidenti Masato Kanda hökumət üzvləri ilə keçirdiyi görüşlərin yekununda bildirib ki, bank 2029-cu ilə qədər Azərbaycana 2,5 milyard dolláradək investisiya ayıracaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin noyabrın 14-də Asiya İnkişaf Bankının prezidenti Masato Kanda ilə görüşündə səmərəli əməkdaşlığa toxunulub, birgə layihələrin uğurlu icrası qeyd edilib. AİB rəhbəri Azərbaycanda dövlət sektoru ilə yanaşı, özəl sektorda yeni layihələrin maliyyələşdirilməsində öz dəstəyini davam etdirəcəyini vurğulayıb. Xüsusilə də, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlərin regionda yeni imkanlar yaradacağına əminliyini ifadə edən AİB prezidenti nəqliyyat-tranzit layihələrinə böyükhəcmli kapital yatırmaq imkanlarının perspektivlərinə də müsbət yanaşıb.

*E. CƏFƏRLİ*

# “Bizi həmişə təzim pozasında görmək istəyənlər olub...”

Bu məqalə ənənəvi tamaşaçıdan alternativ tamaşaçıya keçid dövrü haqqındadır.

Biz burada televiziyanı sadəcə əyləncə, sadəcə informasiya vasitəsitək təmsil etmirik və etməyəcəyik. Televiziyanın bir qınaq hədəfinə çevrilməsinin, ənənəvi olmayan, amma nisbətən oxşar vasitələrlə təhdid edilməsinin əsl səbəblərini araşdıracağıq. Bu, heç də yeniliklə köhnəliyin təbii mübarizəsi deyil.

Bir daha əmin olacağıq ki, televiziya indi olduğundan dəfələrlə artıq əhəmiyyətə malikdır:

- Birincisi: televiziya müstəqil dövlətin əsas dayaqlarından biridir.
- İkincisi: televiziyanın timsalında ilk növbədə ailə institutu özünə etibarlı müttəfiq tapıb.
- Üçüncüsü: televiziya bütövlüyünü bir vətəndaş olaraq qorumalı olduğumuz milli-coğrafi, mənəvi ərazidir.

**TELEVİZOR: MÜSTƏQİL DÖVLƏT - MÖHKƏM AİLƏ MODELİ ÜÇÜN**

Televiziyanı sadəcə bir məlumat kitabçası, kinoteatr, konsert salonu, idman arenası və s. kimi təqdim etmək yanlış olardı. Xüsusilə indi. Ənənəvi televiziya enerjisini, spesifik alternativ enerjinin-bərpa olunan yayım platformalarının qarabaqara izlədiyi bir zamanda. Və biz bu gün televiziyadan yox, daha çox televizordan bəhs edəcəyik. Ona görə ki, televizor evi, yəni dövlət modelini tərk etməyə qoymur, bizi mənzilə çəkir. Ailəyə çəkir. Ailə bu unikal varlığın ətrafına bir süfrə başına yığışan kimi toplaşır. Televizora rəqib olan bütün kiçik cihazlar isə - burada planşetlər, notbuklar, göstərmək, yaymaq və dinlətmək imkanına malik olan mobil telefonlar sizi, bizi harasa daşıyır, getməyə, aparılmağa sövq edir.

Bu baxımdan yalnız televizor unitardır. Məsələn, siz telefonlarla, planşetlərlə, notbuklarla paylanaraq parçalanır, harasa gedərkən klassik birlikdən, vəhdətdən aralanırsınız. Bu, əlbəttə sizin baxdığınız vasitələri xırdalayır, ona bir fəst-fud məzmunu verir. Necə deyərlər, əlinizdəki dürmək, yaxmac kimi: götürüb gedirsiniz. Siz bir anda milyonlarla tamaşaçıya malik olan bir qurğunu-televizoru “20 min baxıb, 200 min baxış olub” kimi kiçilməyə təhrik edən alətə dəyişirsiniz. Miqyas etibarilə isə hətta bir küçə boyda, prospekt boyda belə olmursunuz. Televizorun aşıladığı qaydalar, vərdişlər, adətləşmiş detallar bizi bir yerə yığır, birləşdirir. Dövlət başçısının müraciətləri, Yeni il mavi işıqları, hərbi paradın translyasiyası, telemarafonlar, burada nümayiş etdirilən filmlər, ailə üçün nəzərdə tutulan layihələr məhz ona xidmət edir ki, hamı birləşsin. Ailə modelinə uyğun olaraq. Göstərmək imkanına malik olan, amma heç bir halda tamhüquqlu televizor olmayan və heç vaxt da olmayacaq cib cihazları isə ailə dayaqlarından fraqmentləri, parçaları daşıyaraq aparır, xəfif-xəfif zədələyir, laxladır, hər birimizin, o cümlədən övladımızın- (oğul, ya qız: fərqi yoxdur...), oğrun şəkildə ailə dairəsindən kənara çəkilərək separatcasına özünə qurşanmasına xidmət edir. Evində televizorun önünü tərk edən tamaşaçılar yeni qaçqın tipi yaradaraq planşetə, mobil telefona və ya bu sinifdən olan başqa daşıyıcılara, çadırlara köçürlər. Televizor-unitarlıqdır. Alternativ və bərpa olunan Kiçik Göstərənlər isə onu federallaşdırır, bütöv tamaşaçını parçalayır. Daha sonra tamaşaçı artıq özünün fərdi informasiya vasitəsinə malik olmağadək kiçilir. O vasitənin öz səhifəsi, öz tamaşaçısı, öz dinləyicisi olur. Bu isə artıq Kütləvi İnformasiya Vasitəsi deyil, Fərdi İnformasiya Vasitəsi deməkdir. Məqalənin əvvəlində qeyd etdiyim keçid dövrü də elə budur. Kütləvi informasiya vasitələrinin fərdi informasiya vasitələrinə çevrilməsi. Bütün dünyada milli özünəməxsusluğu, müstəqil vətəndaşlığı, müstəqil dövlət anlayışını əridib üyütmək, ətçəkən maşından keçirmək istəyənlərə də elə bu lazımdır. Bütün belə icadlar, ixtiraların ana niyyəti kimi.

**TELEVİZOR - QLOBAL ƏTÇƏKƏNLƏRİN RƏQİBİ**

Qlobal ətçəkənlərin istədiyi də məhz elə budur ki, televizor ya sıradan çıxsın, ya da necə deyərlər, taleyi ilə barışmış, qəribə səslənsə də, “ev qızı” kimi bir küncdə qalsın: başıaşağı... Ekranın üstünə örpək, ağzına yaşmaq vurulsun və. Hansısa yüngül qurğu-mobil göstərən onu əvəz etsin. İdarə edilməsi asan, ixtiyarı başqa əllərdə olan Mobil Göstərən. Minlərlə kilometr uzaqdan düyməni basırlar,



sönürsən və ya əksinə. Vəssəlam! Televizor yalnız hansısa aparıcının, hansısa jurnalistin başını çıxarıb-saldığı yuva deyil. Televizor dövlətin hər bir vətəndaşının qorumağa borclu olduğu sərhəddir. Televizor-Dövlətin dilidir. Dilin müdafiə zonasıdır. “Televizora baxmıram!” demək- vətəndaş üçün ciddi ayıb olmalıdır. “Əl-üzümü yumuram”, “əsnəyəndə ağzımı tutmuram”, “hərbi xidmətə getmirəm”, “vergi ödəmirəm” kimi. Çünki televizor nə ütü, nə paltaryuyan, nə soyuducu, nə tozsorandır. Televizorun strateji əhəmiyyəti-dövlətin öz vətəndaşının mənzilində fövqəladə və səlahiyyətli nümayəndəsi tək mövcud olmasında, ailənin xalq kimi özünü dərketmə funksiyasını icra etməsindədir. Mənzildə televizor daşınmaz əmlakdır. Amma yalnız bu da deyil. O, həm də və daha çox hamını öz ətrafında birləşdirməyə qabil əsas istinad nöqtəsidir. Bir az başqa rakursdan yanaşaq.

**TELEVİZOR: ƏRAZİ BÜTÖVLÜYÜ, YOXSA MİLLİ MÜQƏDDƏRATINI TƏYİN ETMƏ?**

Televizor və Mobil Göstərən münasibətləri Ərazi bütövlüyü və Milli Müqəddərat paralelinin başqa müstəvidəki əksidir. Birində birləşdirməyin, birliyin, digərində isə ayırıcılğın, parçalanmağın rəmzi və təşviqi var. İndiki halda televizor bizim hər birimizin evimizdəki ərazi bütövlüyümüzdür. Mobil göstərənlər isə daşınan informasiya, əyləncə, musiqi qabları, futlyarları (qılafları) isə öz müqəddəratını təyin etmək vasitəsi. Müstəqil Dövlət İdeyasının daşıyıcılarından ötrü əsas olan Ərazi Bütövlüyüdür. Və inanın ki, bütün bunları mənə dedizdirən heç də bir televiziya əməkdaşının eqoizmi deyil. Televiziya təmsilçisi olaraq çox rahatam və onu da yaxşı bilirəm ki, ənənəvi televiziya bir institut olaraq Azərbaycan dövlətinin müstəqilliyinin ən mühüm atributlarından, ən vacib tanıtım komponentlərindən, dövlət suverenliyinin bariz göstəricilərindən biridir. Həmişə də belə olmalıdır. Mən sadəcə olaraq faktları sadalayıram. Televizorun bir avadanlıq, bir cihaz olaraq qorunmasının həm də milli-mənəvi dəyərini, əhəmiyyətini izah etməyə çalışıram. Vətənpərvərliklə virtual məkanpərvərlik məhz bu kontekstdə qarşı-qarşıya gəlir. Vətəni müdafiə etmək kimi özünü yaşatmaq, qorumaq missiyası məhz mobil informasiya müstəvilərinin sayəsində bir anlayış olaraq deqradasiyaya uğramaqda, sıradan çıxarılmaqdadır. Televizor həm Dövlət Başçısının xalqı bir yerə yığaraq üz tutmaq tribunasıdır, həm muğam, həm xalça, həm xınayaxdı, həm Novruz tonqalıdır, həm də böyük-kiçik yeri bilməkdir, ədəb-ərkan kimi dəyərlərin, bütün sağlam milli-mənəvi keyfiyyətlərin toplandığı xəzinədir. Onu süni surətdə arxa plana atmaq, televizora guya heç kimin baxmadığını iddia edənlərin təhlükəli təhkiyəsinə qoşulmaq da elə o xəzinəni yoxa çıxarmaq, dövlətin əsas ideoloji gümbəzini vurub sıradan çıxarmağa cəhd edənlərlə eyni mövqeyi bölüşməkdir. Biz televizoru mənzilimizin Hərbi Dəmir Günbəzə bərabər qoruyucusu bilməliyik! Üzərimizə gələn bütün hücumları, təhdidləri layiqincə dəf etmək qurğusu! Başqa bir müqayisə də ola bilər. Və bu müqayisədə də televizora müharibə elan etmişlərin məramı aydın görünür.

**TELEVİZOR - ƏN ETİBARLI NƏQLİYYAT VASİTƏSİ**

Məsələn, televizor və radio ictimai nəqliyyat vasitəsidir. Amma adam özünü şəxsi nəqliyyat və ya indiki halda şəxsi məlumat, mobil telequrğularla təmin edəndən sonra ictimaidən imtina, öz şəxsi avtomobili və ya mobil avtosu ilə televizoru əvəz edir. Əgər ictimai olmaq “bir-



yerdəlik”, “hamı ilə bir olmaq” vərdişlərinin formalaşdırıldığı məkanı bölüşməkdirsə, mənzildə televizor hamının istifadə etdiyi ictimai nəqliyyatdırsa, deməli mobil qurğularla muxtar, özbaşına yayım yapanlar da o zaman ictimai nəqliyyatdan öz fərdi avtomobili olduğuna görə imtina edənlərdir. O yayımçı-tamaşaçı öz telefonundadır: ya tik-tokdadır, ya feysbukda, ya instaqramda, ya bir başqa səyyar mobil nəqliyyat vasitəsində, hansısa internet TV-nin xidmətində. Televizora bu gün hətta öz həyatını bir daşıyıcı- artıq nəqliyyat vasitəsi olaraq bitirməkdə olan kitablar da rəqib çıxır. Kitab satışını təbliğ edənlər, cəmiyyətə əslində köhnəni, unudulmaqda olan bir daşıyıcılıq mədəniyyətini təlqin etməklə antitelevizor mühitinin formalaşmasına öz töhfəsini verirlər. Fikir verirsiniz? Bilərəkdən, ya bilməyərəkdən müstəqil dövlətin əsas ideoloji-mənəvi platforması olan televizor, radioqəbuledici vurulur, zədələnir, əvəzində hətta arxaik informasiya daşıyıcıları belə qədir-qiymətə mindirilir. Bu tendensiya isə Azərbaycanın bir dövlət kimi əsas ideoloji divarına-televizora, birlik aşılayan dəyərə, kollektivlik düşüncəsi istehsal edən dəzgaha qarşıdır.

**TELEVİZOR: ÇUBUQLARIN DƏSTƏSİ**

Televizoru sıradan çıxarmağa çalışanlar, onun sənədli filmləri ilə, 100-lərlə insanın cəlb edildiyi batal tok-şouları ilə, elmi, etnoqrafik məzmunlu, araşdırma xarakterli məhsulları kimi unikal keyfiyyətləri ilə də mübarizə aparırlar. Televizora alternativ cihazlar yalnız bir və ya bir neçə danışan kəllə civarında monitor vəd edir. Onlar televizorun sadaladığımız məhsulları ilə birlikdə inkişafında maraqlı deyillər. Faydalı, yaşının icazə verdiyi animasiya filmlərinə baxan cocuq yoxa çıxır. Bəs o cocuq o filmə harada baxırdı? Televizorda. Onun öz vaxtı var idi. Nənənin, babanın, atanın, ananın da eləcə öz ekran vaxtı var idi. Televizorun məruz qaldığı zərbələr o insanları ekran köçkününə çevirir. Bir məşhur hədis var: Ata öz övladlarına birlikdə olmağın faydasını izah etmək məqsədilə nazik heyva çubuqlarından toplanmış dəstə verir ki, sındırsınlar. Ən kiçik və cüssəcə ən zəif övlad bu dəstənin çubuqlarını tək-tək və asanlıqla sındırır. Ata sonra bütün çubuqları dəstə şəklində sındırmağı əmr edir. Amma buna heç kimin gücü çatmır. Bu mənada ayrı-ayrı yayım qurğuları, kiçik efir çubuqları ilə tamaşaçı, dinləyici, vətəndaş təklənib. Onları sındırmaq asanlaşıb. Televizor isə məhz o dəstədir. O, birlikdir. Hamılıqdır. İnsan azadlıqları, söz azadlıqları, demokratiya, sərbəst toplaşmaq azadlıqları barədə bizə təlqin edilənlərə gəlin indi mənim bütün bu dediklərimdən sonra baxaq. İraq olsun, hesab edək ki, televizoru sıradan çıxarmağa müvəffəq olublar. Yəni zənn edək ki, televizor dövlətin və xalqın əsas mədəniyyət, ənənəvi mənəviyyat süfrəsi tək ortadan yığışdırılıb. Allah göstərməsin, tutaq ki, televiziya, televizor nə qədər ağır səslənsə də zərərsizləşdirilib. İnsanların azadlığını, iradələrini idarə etmək onların əlindəki mobil cihazların ümidinə buraxılıb. Dövlət hər bir vətəndaşı ilə onun beyninin məhdud həcmi və ya informasiya skuteri ilə hesablaşmalıdır. Fantaziyanıza azadlıq verin, görün bu hadisə bizi hansı aqibətə aparıb çıxarardı?! Belə bəd aqibət nümunələri dünyada artıq kifayət qədərdir. İndi isə bir az da irəli gedək: Gəlin bunu düşünək ki, Azərbaycan kimi dövlətlərin gerçək azadlıqlarını niyə hansısa şübhəli azadlıq indeksləri ilə təhrif edirlər? Axı əslində onların tərtib etdiyi azadlıq indeksləri Gerçək Azadlığı yox Gerçək Asılılığı, Əsl Müstəmləkəliyi nümayiş etdirir. Televiziya, radio: ənənəvi daşıyıcı olan televizor, radioqəbuledici milli dayaqların, o cümlədən ədəbiyyatın, incəsənətin mənzərəsini bütün üfüqləri, hüdudları ilə göstərirsə, mobil və ya cib yayımı epik, batal efir ənginliyini qəbul etmək iqtidarında olmadığından hər şeyi kiçildərək, çeynəyərək öz boğazının deşiyi səviyyəsinə salmalı olur. Belə edir ki, boğazdan asan keçsin. Biz öz televizorumuzu, öz radioqəbuledicimizi söndürəndən sonra  arxayın oluruq ki, onu keçirmişik. Amma ənənəviyə qarşı çıxarılan yayıcılar, vasitələr söndürüləndən sonra da işləməkdə davam edir. Hər kəsin cibində, ya da başının altında. Yaxud qulağının dibində.

**TELEVİZOR - MİLLİ SƏRVƏT**

Bütün bunları deməkdə məqsədim odur ki, televizoru ailə institutunu qoruyub saxlayan əsas media aləti kimi, ətrafına bütün ailə üzvlərinin cəm olduğu süfrətək qəbul edək, başına yığışaq və onu həm də dövlətimizin əsas atributlarından biri kimi qoruyaq. Bayraq, himn, gerbtək. Milli sərvət kimi. Nə planşet, nə mobil telefon, nə ipod, nə notebook milli sərvət ola bilər. Amma mənzildə televizor milli sərvətdir. Ona görə də televizor evdə ən hörmətli yerdə olmalıdır. Hədəf olduğumuz bütün hücumlara birlikdə müqavimət göstərməliyik. Süni zəkanın, ağıllı texnologiyaların, yaşıl enerjinin, kibertəhlükənin, süni intellektin mövcud olduğu, onların doğurduğu yeni çağırışların hər gün həndəsi silsilə ilə artdığı mühitdə bu, getdikcə nazilən, amma heç vaxt üzülməyən teleHəqiqəti-televizoru dövlətin özü qədər əhəmiyyətli varlığı qorumalıyıq. Artıq biz olan hadisənin xəbərini verən yox, özünün uydurduğunu xəbər kimi verənin, yalanı qablaşdıraraq yayanın, Allahın yaratdığı ilə süni xilqətin, qondarılmış məxluqun-süni intellektin yaratdıqlarının mübarizəsində Həqiqətin gözdən salınmasının şahidləriyik. Baxmayaraq ki, süni intellekt həm də müsbət xidmətlər imkanıdır. Amma ağıllı başların əlində. Hüdudsuz sosial-virtual okeanda müdriklər, aqillər çox azdır. Xəbərin dəqiqliyini yenə də metrika ilə- yəni qəzetlə və təbii ki, televizorla dəqiqləşdirmək lazımdır. Bu halda xəbərin əks göstəricisi olmayacaq. Bu funksiya həm də televizorun məsuliyyət hissini qoruyacaq.

**TELEVİZOR - EV SAHİBİ**

Amma onu da unutmayaq ki, yeni televizor da bir cihaz olaraq yalnız televizor deyil. Modern televizor həm də yutub və digər qohum resurslara açıqdır. Tamaşaçının bizim qabda başqa xörəklərə, başqa qidalara da əl uzatmaq imkanı var. Rəqibimiz həm də özümüzük. Ancaq heç nəyə baxmayaraq, televizor bizimdir. Bizim mülkiyyətdir. Bizim əmlakdır. Televizora daxil olanlar kirayənişin ola bilərlər, icarəçi ola bilərlər, heç bir halda mülkiyyətçi deyillər. Ola da bilməzlər. Bizik əsas ev sahibi! Tamaşaçını, radio dinləyicisini ənənəvi yerindən, mənzilindən götürüb cibinə, planşetinə, smartfonuna soxanlar, onu ailədən-dövlətdən ayıraraq məchulluğa itələyərək didərgin salanlar elə düşünürlər ki, televizorun artıq boşaldılmış məkanında məskunlaşa bilərlər. Buna yol verməməliyik. Öz məhsullarımızla. Keyfiyyətli məhsullarımızla. Biz televizoru qorumalıyıq. Onun tamaşaçılarını qorumalıyıq. Hara gediriksə, hara baxırıqsa, harada vaxt itiririksə qayıtmalı, televizorumuzun önünə geri gəlməliyik. Birləşmək üçün. Binamızda, mənzilimizdə, analarımızın, atalarımızın, balalarımızın yanında olmaq üçün. Həm də televizorumuzun yanında olmaq üçün. Çünki o, sadəcə cihaz, o, sadəcə qurğu, o, sadəcə bir əşya deyil. O, dövlətçiliyin, ailəçiliyin ən mühüm elementlərindən biridir. Unutmayaq. Bizi həmişə qarşılarında təzim pozasında görmək istəyən dövlətlər olub, var və olacaq. Çünki bu poza kötək üçün də, yüklənmək üçün də ən əlverişli vəziyyətdir. Hamını ətçəkən maşından keçirib qlobal farş halına salmaq istəyirlər. Televizor isə bizim səngər olmalıdır, vətəndaşımıza müstəqil dövlətimzdən asılı olmaq azadlığı aşılamalıdır. Başqa divarların altında qalmayaq deyə. Məsələn, əvvəl evliliyə hazırlaşan cütlük evi necə dolandıracağı, çörəyi necə qazanacağı, ailənin möhkəmliyini necə qoruyacağı barədə düşünür, dövlətin kiçik şəklinin içində idarəçiliyi öyrənirdi. Müəllim yanına gedərək rəqs etməyi yox. Baxın: birinci cümlə daşınmaz əmlakın-televizorun, ikinci cümlə isə daşınan əmlakın-mobil göstərənlərin xidmətidir. Televizor millətin mənəviyyatını qoruyan divar olmalıdır! Ərazi bütövlüyü, yoxsa öz müqəddəratını təyin etmə? Mən Ərazi bütövlüyünü-TELEVİZORU seçirəm! Bəs Siz? Gəlin müzakirə edək!



***“Real TV”nin baş direktoru***
***Mir Şahin Ağayev***
***Xüsusi olaraq “Qafqazinfo” üçün***

# 3-cü Şimal dənizi hövzəsi Sammiti...

## Hövzə ölkələri Arktikanın təhlükəsizliyini gücləndirməyə çalışır

ABŞ Prezidenti Donald Trampın dünyanın ən böyük adası olan Qrelandiyanı ələ keçirmək planı Avropada təhlükəsizlik üçün təhdid hesab olunur. Çünki adanın məxsus olduğu Danimarka və digər Avropa ölkələri Trampın mövqeyini qəbul etmir. Hətta Avropa ölkələri Qrelandiyada hərbi mövcudluqlarını artırmaq niyyətindədirlər. İş burasındadır ki, həm ABŞ, həm də Avropa ölkələri NATO-nun üzvləridir. Yaranmış vəziyyət isə alyans daxilində ciddi qarşıdurma yarada bilər.



### Rutte: Avropa ABŞ olmadan özünü müdafiə etmək gücündə deyil

Bütün bunların fonunda Ağ Ev rəhbəri əminliklə söyləyir ki, ABŞ olmadan Avropa öz təhlükəsizliyini təmin edə bilməz. Bu reallığı NATO-nun Baş katibi Mark Rutte də etiraf edib. O, Avropa Parlamentinin xarici işlər və təhlükəsizlik komitəsinin iclasında çıxışı zamanı deyib ki, Avropa ABŞ-ın dəstəyi olmadan özünü müdafiə etmək gücündə deyil. "Avropanın ABŞ-sız özünü qoruya biləcəyini düşünənlər xəyallarla yaşamağa davam edə bilərlər", - deyən Baş katib vurğulayıb ki, ABŞ bundan sonra da Avropada güclü hərbi mövcudluğunu saxlayacaq. NATO çərçivəsində Arktika və Qrenlandiyanın təhlükəsizliyi ilə bağlı ayrıca istiqamətlər üzrə iş aparılır. Bununla yanaşı, Qrenlandiya məsələsi və Ukraynadakı müharibə ayrı-ayrılıqda müzakirə olunur. Alyans rəhbərinin fikrincə, Rusiya Prezidenti Vladimir Putin NATO-dan ayrı Avropa müdafiə sistemində maraqlı ola bilər.

Rüttenin açıqlamaları ABŞ Prezidenti Donald Trampa göndərdiyi və amerikalı lideri təriflədiyi SMS mesajına görə ünvanına səslənən tənqidlər fonunda verilib. Ağ Ev rəhbəri sözügedən mesajı "Truth Social" şəbəkəsində yayımlayıb. Ötən həftə Davosda keçirilən Dünya İqtisadi Forumunda panel müzakirəsi zamanı NATO-nun Baş katibi bildirib: "Hazırda mən sizdə populyar deyiləm, çünki Trampı müdafiə edirəm. Amma düşünürəm ki, onun hakimiyyətdə olmasına sevinə bilərsiniz. O, Avropada bizi məsuliyyəti üzərimizə götürməyə və şəxsi müdafiəmizlə daha ciddi məşğul olmağa vadar etdi".

Nəzərə alaq ki, Tramp Davosda çıxışı zamanı adaya nəzarəti ələ keçirmək üçün hərbi güc tətbiq etmək niyyətində olmadığını deyib, lakin ABŞ-ın Qrenlandiyaya ehtiyacı olduğunu da vurğulayıb: "Bu bizə strateji, milli və beynəlxalq təhlükəsizlik baxımından lazımdır. Bu, Şimali Amerikanın bir hissəsidir və bizim ərazimizdir".




### ABŞ tərəfində yaranmış anlaşılmazlıq...

Almaniyanın müdafiə naziri Boris Pistorius isə ABŞ-ın Qrenlandiya məsələsi ilə bağlı gömrük mübahisəsində Almaniyanın guya eskalasiyaya səbəb olması ilə bağlı ittihamlarını rədd edib. Nazir bu barədə ARD telekanalına açıqlamasında Bundesverin hərbçilərinin NATO çərçivəsində Qrenlandiyaya göndərilməsini doğru addım hesab edərək deyib: "NATO-da hamı bundan məlumatlı idi. Bu, NATO tərəfdaşları arasında razılaşdırılmış addım idi". O, kəşfiyyat missiyasının başlanmasından qısa müddət sonra ABŞ Prezidenti Donald Trampın Almaniyanı gömrük rüsumları ilə təhdid etdiyini, lakin sonradan bu təhdidləri geri götürdüyünü qeyd edərək, bunun ABŞ tərəfində yaranmış anlaşılmazlıq olduğunu vurğulayıb. Missiyanın eskalasiyaya səbəb olmadığını vurğulayan nazir bildirib: "ABŞ Prezidenti tərəfindən gömrük rüsumlarının geri götürülməsi göstərir ki, Vaşinqtonda açıq bir anlaşılmazlıq yaranmışdı". O, bu addımın heç kimə qarşı yönəlmədiyini, məqsədin NATO-nun Qrenlandiyadakı məsuliyyətini göstərmək olduğunu vurğulayıb.

B.Pistorius, həmçinin Donald Trampın Davos Forumunda NATO-nun Baş katibi ilə Qrenlandiya məsələsi barədə gələcək çərçivə razılaşması barədə razılığın əldə olunmasına da münasibət bildirib. Müdafiə naziri bunun hər hansı rəsmi razılaşma deyil, adi müzakirə olduğunu qeyd edərək, Qrenlandiya və Danimarkanın danışıqlarda iştirak etmədiyini deyib.

Bu arada, Almaniyanın Hamburq şəhərində Şimal dənizi hövzəsi ölkələrinin dövlət və hökumət başçılarının üçüncü sammiti keçirilib. Avropanın 9 ölkəsinin - Belçika, Danimarka, Fransa, İrlandiya, İslandiya, Lüksemburq, Niderland, Norveç və Böyük Britaniyanın təmsil olunduğu sammitə Avropa Komissiyası, NATO və 140-dan çox şirkət, birlik və qeyri-hökumət təşkilatının nümayəndələri də qatılıb. Xatırladaq ki, Şimal dənizi Sammiti ilk dəfə 2022-ci ildə Danimarkanın təşəbbüsü ilə Esbyerq liman şəhərində təşkil olunub. Sammitin əsas məqsədi Rusiya-Ukrayna müharibəsi fonunda Şimal dənizi ölkələrinin dənizdə külək enerjisinin inkişafı sahəsində əməkdaşlığını gücləndirmək və bununla da Rusiyadan fosil yanacaq idxalından asılılığı azaltmaq olub.




### Yeni qərarlar...

Bu dəfə isə sammitdə 2 əsas məsələ - dənizdə yeni külək enerjisi qurğularının inşasının sürətləndirilməsi və Şimal dənizi regionunda təhlükəsizlik məsələləri gündəmdə olub. Almaniya Kansleri Fridrix Merts çıxışında geosiyasi çağırışlara toxunaraq, gələcəkdə əhalinin daha yaxşı qorunmasının vacibliyini vurğulayaraq deyib: "Xüsusilə Danimarka və Qrenlandiya əhalisi bizim həmrəyliyimizə arxalana bilər". Fridrix Merts Avropanın Arktikanın təhlükəsizliyinin təmin edilməsi üçün daha çox iş görəcəyini bildirib. O, məsələnin ümumi maraqlara cavab verdiyini qeyd edərək, şimal regionunun daha effektiv qorunması üçün birgə səylərin əhəmiyyətini vurğulayıb.

Danimarkanın Baş naziri Mette Frederiksen isə Qrenlandiya NATO hərbi kontingentinin yerləşdirilməsinin təkcə Alyansın şimal cinahı üçün deyil, eyni zamanda, geosiyasi baxımdan da mühüm əhəmiyyət daşıdığını ifadə edib.

Sammitdə iştirakçı ölkələr konkret tədbirlər paketi qəbul edib. Əsas diqqət dənizdə külək parklarının və müvafiq elektrik şəbəkələrinin genişləndirilməsində regional koordinasiyanın və maliyyələşdirmənin gücləndirilməsinə yönəldilib. Şimal dənizi ölkələri 100 qiqavata qədər istehsal gücünü transsərhəd şəkildə birləşdirmək barədə razılığa gəlib.

Bundan başqa, dənizdə külək enerjisi sənayesi və ötürücü şəbəkə operatorları arasında imzalanmış birgə investisiya paktı çərçivəsində regionun dünyada təmiz enerji üzrə ən böyük mərkəzə çevrilməsi məqsədilə bir sıra tədbirlər razılaşdırılıb. Bu çərçivədə Şimal dənizi ölkələri 2030-cu ildən sonrakı dövr üçün də dənizdə külək enerjisi üzrə tenderlərin sabit axınının təmin olunmasını hədəfləyir.

***Nardar BAYRAMLI***

# Türkiyənin vasitəçiliyi...

## Sudan dövləti Ankaraya üz tutur



**150 min nəfər ölüb, 21 milyon qaçqın var...**

Müharibənin ən ağır nəticəsi isə humanitar sahədə özünü göstərir. Milyonlarla insan ev-eşiyini tərk etməyə məcbur qalıb, Sudan dünyanın ən böyük məcburi köç böhranlarından biri ilə üzüzədir. Qeyd edək ki, Sudanda 2023-cü ildən davam edən vətəndaş müharibəsində 150 mindən çox insan ölüb. BMT-nin məlumatına görə, 9 milyondan çox insan yaşadığı ərazilərdən köçürülüb, 4 milyon sudanlı isə qonşu ölkələrə sığınıb. Hazırda 21 milyon insanın qida çatışmazlığından əziyyət çəkdiyi, aclıqla üz-üzə qaldığı bildirilir. Səhiyyə sistemi iflic vəziyyətinə düşüb, xəstəxanalar fəaliyyətini dayandırıb, aclıq və epidemiyalar riski sürətlə artır. Xüsusilə uşaqlar və qadınlar münaqişənin ən həssas qurbanlarıdır - təhsilə çıxış kəskin şəkildə məhdudlaşıb, bütöv bir nəsil gələcək perspektivlərini itirmək təhlükəsi ilə qarşı-qarşıyadır. Beynəlxalq ictimaiyyətin atəşkəs və danışıqlar cəhdlərinə baxmayaraq, münaqişə həlli də davam edir. Regional və qlobal güclərin dolayı təsiri, silah axını və geosiyasi maraqlar Sudandakı böhranı daha da dərinləşdirir.

2023-cü ilin 15 aprelindən etibarən Afrika qitəsinin strateji ölkələrindən biri olan Sudanda başlanan ağır və dağıdıcı vətəndaş müharibəsi hələ də davam etməkdədir. Münaqişə Sudanın rəsmi ordusu - Sudan Silahlı Qüvvələri (SAF) ilə əvvəllər dövlətin təhlükəsizlik arxitekturasının bir hissəsi olmuş, lakin faktiki olaraq müstəqil gücə çevrilmiş Çevik Dəstək Qüvvələri (ÇDQ) arasında baş verib. Qarşıdurmanın əsas səbəbi 2021-ci il hərbi çevrilişindən sonra ölkədə mülki idarəçiliyə keçid prosesində bu iki qüvvə arasında səlahiyyət, nəzarət və hakimiyyət bölgüsü ilə bağlı dərin fikir ayrılıqlarının yaranmasıdır. Xüsusilə ÇDQ-nin orduya inteqrasiya olunması məsələsi böhranı silahlı toqquşma mərhələsinə gətirib çıxarıb.



Döyüşlər ilk gündən paytaxt Xartum, Merove hava limanı və strateji hərbi obyektləri əhatə edib, daha sonra isə Darfur, Kordofan və digər regionlara yayılıb. Şəhər döyüşləri, mühasirələr və infrastrukturun sistemli şəkildə dağıdılması ölkəni faktiki olaraq idarəolunmaz vəziyyətə salıb.

**Müharibənin bitməsi üçün...**

Bu arada Sudanın Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Port Sudan şəhərindəki iqamətgahında Türkiyədən olan jurnalistlərə açıqlamasında bildirib ki, münaqişənin aradan qalxması üçün Türkiyənin vasitəçiliyini təklif etmişik, lakin bəzi qüvvələr bunu qəbul etmir. Bu müharibənin bütün sudanlılara zərər vurduğunu bildirən Al-Burhan ölən və yaralananların çox olduğunu xatırladıb və ölkəyə dəyən maddi ziyanın miqyasının böyük olduğunu qeyd edib. "ÇDQ-nin sonu gəlmədən sülh olmayacaq. Onların təklifləri problem həll etmək yox, vaxt qazanmaq məqsədi daşıyır", - deyən Al-Burhan vurğulayıb ki, ÇDQ-nin təslim və tərk-silah olması da həll yoludur.

**Uşaq bağçası bombalanmışdı...**

Vurğulandığı kimi, müharibədən ən çox əziyyət çəkən məhz uşaqlardır. Ötən ilin sonunda uşaq bağçası və xəstəxanaya pilotsuz təyyarələrlə hücumlar həyata keçirilmişdi. Sudan Xarici İşlər Nazirliyi Cənubi Kordofanda 79 uşağın xəsarət aldığını, UNICEF isə ölənlərin arasında 10 nəfərin 5-7 yaş aralığında olduğunu qeyd etmişdi. Ümumilikdə, hücum zamanı 43 uşağın öldüyü vurğulanmışdı. UNICEF-in Sudandakı nümayəndəsi Şeldon Yett bildirmişdi ki, "məktəblərdə uşaqların öldürülməsi uşaq hüquqlarının dəhşətli şəkildə pozulmasıdır". O qeyd etmişdi ki, müharibə uşaqların günahı olmadığı kimi, əziyyəti də onlar çəkməməlidirlər. UNICEF bütün tərəfləri bu hücumlara dərhal son qoymağa və çarəsiz ehtiyacı olanlara təhlükəsiz və maneəsiz humanitar yardımın göstərilməsini təmin etməyə çağırış etmişdi.

***SADİQ***

# Fransada büdcə müəmması davam edir

## Hökumət Milli Assambleyada 2 yeni etimadsızlıq təklifi ilə qarşılaşıb



Fransada 2026-cı il dövlət büdcəsinin müzakirəsi ilə bağlı siyasi gərginlik davam edir. Baş nazir Sebastyan Lökornü hökuməti büdcə layihəsinin xərclər hissəsini qəbul etdirmək üçün Konstitusiyanın 49.3-cü maddəsindən istifadə etdikdən sonra Milli Assambleyada iki yeni etimadsızlıq təklifi ilə qarşılaşıb. Bu təşəbbüslər solçu qüvvələrin bir hissəsi və ifrat sağçı Milli Birlik (Rassemblement national RN) tərəfindən irəli sürülüb, lakin onların qəbul olunma ehtimalı aşağı qiymətləndirilir.

Hökumət layihənin həm gəlirlər, həm də xərclər hissəsi üzrə 49.3 mexanizminə müraciət edib ki, bu da parlament müxalifətinin kəskin reaksiyasına səbəb olub.

Bir neçə gün əvvəl Milli Assambleya büdcənin gəlirlər hissəsi ilə bağlı iki etimadsızlıq təşəbbüsünü rədd etmişdi. Solçu qüvvələr - "Əyilməz Fransa" (La France insoumise LFİ), ekoloqlar və GDR qrupunun (kommunistlər və dənizaşırı ərazilərin nümayəndələri) təqdim etdiyi təşəbbüs cəmi 19 səs çatışmazlığı ilə qəbul olunmamışdı. Eyni ssenarinin yeni təqdim edilən iki etimadsızlıq təklifi üçün də təkrarlanacağı gözlənilir. Əgər bu təşəbbüslər də uğursuzluğa düçar olarsa, 2026-cı il maliyyə qanunu layihəsi Milli Assambleyada yeni oxunuşda qəbul edilmiş sayılacaq və Senata göndəriləcək. Senatın sənədi cümə axşamı müzakirə etməsi və dərhal rədd etməsi ehtimal olunur ki, bu da layihənin yekun oxunuş üçün sürətlə yenidən assambleyaya qaytarılmasına imkan verəcək.

Artıq qəbul edilmiş gəlirlər bölməsinə iri şirkətlərin mənfəətinə əlavə vergi, holdinqlərə tətbiq edilən yeni rüsum və kiçik poçt bağlamalarına olan vergi daxildir. Xərclər hissəsində isə fəaliyyət müavinətinin (prime d'activite) cüzi artırılması, kənd təsərrüfatı sektoruna dəstək tədbirləri və əksər nazirliklərin büdcə xərclərinin azaldılması nəzərdə tutulur.

Hökumətə yaxın mənbələrin bildirdiyinə görə, Sebastyan Lökornü büdcə tam şəkildə qəbul edildikdən sonra kabinetdə müəyyən dəyişikliklər etməyi də nəzərdən keçirir. Bu isə yaxın vaxtlarda mümkün hökumət dəyişikliyi ilə bağlı ehtimalları gücləndirir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# 45 yaşlı Konvensiya



## Beynəlxalq Fərdi Məlumatların Mühafizəsi Günü

*Yeganə BAYRAMOVA*

Müasir dövrdə şəxsi məlumatlar ən qiymətli resurslardan birinə çevrilib. Hər gün internetdə atdığımız addımlar, sosial şəbəkələrdə paylaşdığımız fikirlər, onlayn alış-veriş zamanı verdiyimiz məlumatlar bizim “rəqəmsal iz”imizi formalaşdırır. Bu iz isə təkcə texnoloji rahatlıq deyil, eyni zamanda ciddi risklər də yaradır. Məhz buna görə fərdi məlumatların mühafizəsi bu gün yalnız hüquqi məsələ deyil, həm də cəmiyyətin mənəvi və etik problemidir.

Şəxsi məlumatların toxunulmazlıq hüququ beynəlxalq hüquqda əsas prinsiplərdən biri hesab olunur. Telekommunikasiya vasitələrindən, xüsusi ilə internetdən istifadənin artması və fərdi məlumatların mühafizəsini təhdid edən texnologiyaların sürətli inkişafı şəxsi həyatın toxunulmazlığı hüququ ilə bağlı narahatlıqların artmasına səbəb olub. Qlobal miqyasda olduğu kimi Azərbaycanda da bu sahədə qanunsuz və özbaşına müdaxilələrin mövcudluğu halları labüddür. Bu baxımdan şəxsi həyatın toxunulmazlığı hüququnun əhəmiyyətli komponenti hesab edilən fərdi məlumatların gizliliyinə dair hüquqların müdafiəsinin gücləndirilməsi strateji məqsədlərdən biridir.



**16 ildir qoşulmuşuq...**

Yeri gəlmişkən, bu gün dünyada Beynəlxalq Fərdi Məlumatların Mühafizəsi Günü kimi qeyd olunur. İlk dəfə 1981-ci il yanvarın 28-də Avropa Şurası tərəfindən Strasburqda “Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işləməsi ilə əlaqədar şəxslərin qorunması haqqında” Konvensiya qəbul edilib. Fərdi Məlumatların Mühafizəsi Gününü qeyd etmək qərarı isə 2006-cı ildə qəbul edilib. Bu tarixin qeyd edilməsində məqsəd geniş əhali kütləsinə şəxsi həyatın və fərdi xarakterli məlumatların mühafizəsinin vacibliyini xatırlatmaqdır. Azərbaycan isə sözügedən konvensiyaya 2010-cu il sentyabrın 1-dən qoşulub.

Artıq fərdi məlumatların kompyuter emalı vətəndaşlar üçün adi hala çevrilib. Bunlardan iş, inzibati rəsmiyyət, səhiyyə, alış-veriş, xidmət, səyahət sahələrini, internetdə naviqasiyanı və s. göstərmək olar. Məlumatların mühafizəsi şəxsi və ailə sirrini saxlamaq hüququnu müdafiə etmək, ifadə və vicdan azadlığı kimi digər əsas hüquqların həyata keçirilməsinin birinci dərəcəli şərtidir.

**Məsuliyyət təkcə dövlət qurumlarının üzərinə düşmür...**

Fərdi məlumat dedikdə insanın kimliyini müəyyən etməyə imkan verən hər cür informasiya - ad, soyad, telefon nömrəsi, ünvan, maliyyə məlumatları, sağlamlıq göstəriciləri və s. nəzərdə tutulur. Bu məlumatların icazəsiz toplanması, saxlanılması və paylaşılması şəxsin şəxsi həyatına birbaşa müdaxilə deməkdir. Şəxsi həyatın toxunulmazlığı isə demokratik cəmiyyətin əsas dayaqlarından biridir.

Texnologiyanın sürətli inkişafı fərdi məlumatların qorunmasını daha da çətinləşdirib. Bir kliklə qeydiyyatdan keçdiyimiz tətbiqlər, “oxumadan razıyam” dediyimiz istifadə şərtləri çox zaman bizi risklər qarşısında müdafiəsiz qoyur. İnsanlar bəzən fərqində olmadan öz məlumatlarını üçüncü tərəflərə ötürür, nəticədə fırıldaqçılıq, şəxsiyyət oğurluğu və ya psixoloji təzyiq halları ilə üzləşirlər.

Bu məsələdə məsuliyyət təkcə dövlət qurumlarının üzərinə düşmür. Şirkətlər topladıqları məlumatlara etik yanaşmalı, onları yalnız qanuni məqsədlər üçün istifadə etməlidirlər. Eyni zamanda vətəndaşların da məlumat savadlılığı artmalıdır. İnsan bilməlidir ki, hansı məlumatı, kimə və nə üçün verir. Şəxsi məlumatlara biganə münasibət gələcəkdə ciddi problemlərə yol aça bilər.

# Ölüm bir gün də tək qoymur məni

## Sükutun içində danışan şair - Vaqif Səmədoğlu...



*Sevgilim, mən öləndə,*
*Bir küncdə xısın-xısın*
*Ağlayacaqsanmı sən?*
*Kimin xarabasında*
*Bir damla yaşa dönüb*
*Düşəcəyəm gözündən?*

Bəzi insanlar dünyadan köçəndə sükut yaranır. Amma elə sükutlar var ki, içində min cür səs gizlənir. Vaqif Səmədoğlunun yoxluğu məhz belə bir sükutdur - danışmayan, amma hər şeyi deyən bir sükut.

O, poeziyaya pafosla yox, həqiqətlə gəlmişdi. Onun misraları hündür səslə danışmırdı, amma adamı rahat da buraxmırdı. Şeirlərində ölüm həyatın sonu deyil, həyatın ən səmimi sualı idi. O, ölümə qorxu kimi yox, həmsöhbət kimi baxırdı. Bəlkə də buna görə oxucunu sarsıdırdı, çünki hamının içində gizlədiyi düşüncələri ucadan deməyə cəsarət edirdi. Onun sözləri bəzən yarımçıq cümlələr kimi görünürdü, amma o yarımçıq cümlələrdə bütöv bir insan taleyi yaşayırdı.

Vaqif Səmədoğlu düşünən bir insan idi. Və bu düşüncə şeirə çevriləndə zamanla barışmayan, rahatlıqla razılaşmayan bir poeziya yaranırdı. O, oxucunu ovutmurdu, oyadırdı. Bəzən ağrıdaraq, bəzən gülümsədərək, amma həmişə dürüst qalaraq. Bu gün onun yoxluğu hiss olunur, çünki belə şəxsiyyətlər tez-tez doğulmur. Amma onun yaratdığı sükut boş deyil - o sükutda hələ də şeirlər dolaşır, suallar yaşayır, cavablar bizi gözləyir.

Vaqif Səmədoğlu həm də Səməd Vurğun şəxsiyyətinin davamı idi. O da şair oldu, amma atasından çox fərqli. Əgər biz Səməd Vurğun poeziyasında yaşamaq, həyat eşqi, güllər, çiçəklər, mübarizə hissini duyuruqsa, Vaqif Səmədoğlu poezisiyasında tam əksinə...

O, klassik şeir ənənəsinin kölgəsində qalmaqdan imtina edən, formaya deyil, məna və hissə üstünlük verən şair oldu. İnsanın içinə çəkilən, daxili monoloqa bənzər bir poetik üslub seçmişdi. Vaqif Səmədoğlunun dili sadədir, lakin bu sadəlik primitivlik deyildi. Bu, sözə qənaətin, artıq bəzəklərdən imtinanın nəticəsidir. O, şeirdə “çox demək” yox, “yerində demək” prinsipinə sadiq qalırdı. Bəlkə də elə buna görə onun misraları yaddaşa asanlıqla hopur və uzun müddət oxucunu tərk etmir. Şair oxucunu heyrətləndirmək istəmir, o, oxucu ilə bərabər düşünmək, bərabər susmaq istəyir...

80-ci illərin sonlarında Azərbaycanın müstəqilliyi uğrunda gedən Milli Azadlıq mübarizəsində fəal iştirak etmiş, Azərbaycan müstəqillik qazandıqdan sonra Milli Məclisin deputatı (2000-2010) və Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinin üzvü (2000-2005) olmuşdu.

V.Səmədoğlunun şeirləri ilə ilk tanışlıqdan heyrətlənən Xalq şairi Rəsul Rza yazırdı: “...Mümkünmüdür, ilk dəfə əlinə qələm alan bir gənc belə bitkin, müasir təfəkkür və geniş müşahidələrlə zəngin şeirlər yazsın...”.

Şeirlərindəki təfəkkür müasirliyi yalnız forma və biçimdə təzahür etmirdi, hərçənd Vaqifin şeirləri bu cəhətdən də yeni idi. Eyni zamanda onun şeirlərindəki bəşəri hisslərin adiliyi, təbiiliyi və qeyri-adiliyi, poetik təfəkkürünün gücü diqqəti cəlb edirdi.

*Məzarıma nə baş daşı qoyun,*
*nə heykəl.*
*Bir cüt ayaqqabı qoyun,*
*ayağıyalın geyib getsin...*

Vaqif Səmədoğlu 2015-ci il yanvarın 28-də Bakıda dünyasını dəyişib, Birinci Fəxri xiyabanda dəfn olunub. 2019-cu ildə Vaqif Səmədoğlu Mərkəzinin sədri, şairin həyat yoldaşı, yazıçı və şərqşünas Nüşabə Babayeva-Vəkilovanın təşəbbüsü ilə Vaqif Səmədoğlu medalı təsis olunub.

Bu gün Vaqif Səmədoğlunun yoxluğu yalnız bir şairin itkisi deyil. Bu, düşünən sözün, məsuliyyətli sükutun, daxilə yönəlmiş poeziyanın yoxluğudur. Amma o, tam yox da deyil. Çünki onun yazdıqları yaşayır. Onun sükutu yaşayır. Hər dəfə insan öz-özünə çətin bir sual verəndə, hər dəfə cavabsızlıqla üzləşəndə, hər dəfə sözün gücünə deyil, həqiqətinə ehtiyac duyanda Vaqif Səmədoğlunun səsi yenidən eşidilir.

Vaqif Səmədoğlu haqqında hər kəsin deməyə sözü olsa da, burda sözümüzü onun bu misraları ilə tamamlayıb, ölməz şairimizə Tanrıdan rəhmət diləyirik.

*Yeganə BAYRAMOVA*



## “Qarabağ” Tofiq Bəhramovda oynayacaq



“Qarabağ” futbol klubu Peşəkar Futbol Liqasına (PFL) müraciət edərək, “Turan Tovuz” klubunun da müvəqqəti ev oyununu keçirəcəyi “Azersun Arena”nın ot örtüyünün hazırda yaxşı vəziyyətdə olmaması və durumun daha da ağırlaşması hallarından qorunması məqsədilə fevralın 1-dən etibarən ev oyunlarının Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilməsinə şərait yaradılmasını xahiş edib.

Bu barədə AZƏRTAC-a PFL-dən məlumat verilib.

Stadionun hazırkı durumu, “Qarabağ” klubunun müraciəti və ümumi infrastruktur şəraitinin daha yaxşı saxlanılmasının önəmini rəhbər tutan Peşəkar Futbol Liqası “Qarabağ” klubunun ev oyunlarının fevralın 1-nə təyin olunan “Turan Tovuz” görüşündən etibarən növbəti bildirişə qədər Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilməsinə qərar verib. Görüşün başlama saatı və günü ilə bağlı dəyişiklik yoxdur.

## Gənc cüdoçular ilə seminar təşkil olunub

Gənc oğlanlardan ibarət yığma komandanın üzvləri üçün Beynəlxalq Cüdo Federasiyasının tətbiq etdiyi yeni qaydalarla bağlı maarifləndirici seminar təşkil olunub.

AZƏRTAC xəbər verir ki, seminar Azərbaycan Cüdo Federasiyasının (ACF) Hakimlər Komitəsinin sədri Natiq Bağırov və ACF-in hakimlər üzrə meneceri, A kateqoriyalı beynəlxalq dərəcəli hakim Mətin Rəhimlinin rəhbərliyi ilə baş tutub.

Tədbir çərçivəsində qaydalardakı yeniliklər idmançılara praktik nümunələr üzərindən təqdim olunub, müxtəlif epizodlar əsasında hakim qərarlarının formalaşma meyarları geniş şəkildə müzakirə edilib. Seminarın məqsədi yeni tələblərin idmançılar tərəfindən daha düzgün və dəqiq mənimsənilməsini təmin etmək, yarış zamanı yarana biləcək anlaşılmazlıqların qarşısını almaq və taktiki yanaşmanın daha effektiv qurulmasına töhfə vermək olub.



## “Kasımpaşa” macarıstanlı müdafiəçi ilə yollarını ayırıb



Türkiyənin “Kasımpaşa” komandasında ayrılıq yaşanıb. AZƏRTAC İstanbul təmsilçisinin rəsmi saytına istinadən xəbər verir ki, klub macarıstanlı müdafiəçi Attila Salai ilə vidalaşıb.

Mövsümün əvvəlində Almaniyanın “Hoffenhaym” komandasından icarəyə götürülən oyunçunun müqaviləsinə vaxtından əvvəl xitam verilib. Attila Salai vaxtilə Türkiyədə “Fənərbağça”nın da formasını geyinib.

## “Qəbələ”də ayrılıq yaşanıb




“Qəbələ” yarımmüdafiəçi Jondo Fuxsla yollarını ayırıb. Bu barədə AZƏRTAC-a klubdan məlumat verilib. Bildirilib ki, 28 yaşlı futbolçu ilə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4618**
**Sifariş: 148**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova